# Arazı ayırdılar



**Maarifə HACIYEVA**
*Filologiya elmləri doktoru, professor*

*"Azərbaycan oyaqdır,
həqiqətə dayaqdır"*

**Doktor Kərimi**

Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin fövqəladə yüksək rəhbərliyi, qəhrəman Azərbaycan əsgərinin, şəhid və qazilərimizin qanı və canı hesabına, torpaqlarımıza xaincə göz dikən erməni terrorçularla 27 sentyabr 2020-ci ildə başlayan, 8 noyabrda qalibiyyətimizlə, zəfərimizlə bitən II Qarabağ müharibəsində işğal olunmuş torpaqlarımız bir-birinin ardınca 44 günə azad oldu. İşğal altında olan torpaqlarımız əsl sahiblərinə qovuşdu. Terrorçu Ermənistan tökdüyü qanda boğularaq məğlub və təslim oldu. Xalqımız böyük zəfərin tarixini yazdı. 2020-ci il dekabrın 10-da Azərbaycanda təntənəli şəkildə "Zəfər Paradı" keçirildi. Bakıda keçirilən "Zəfər Günü" şənliyinə qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da dəvətli idi. Təbrik əsnasında Türkiyə Prezidentinin Laçının qəsbkarlardan azad edilməsi ilə əlaqədar olaraq Laçın haqqında xalqımızın türküyə dönən

*"Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın"* - nəqarətli

*Arazı ayırdılar,
Qum ilə doyurdular,
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar.
Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın*

- şeirini əzbər söylədi.

Azərbaycan xalqının dilinin əzbəri olan bu klassik bayatı İranda vəzifəli bir fars məmurunu narahat etmişdi. O, Ərdoğanın Laçının erməni işğalçılarından azad olması münasibətilə söylədiyi bu şeiri dərk etməmişdi və İran parlamentində "gərək ermənilərə kömək edərdik" deyə cahil fikir səsləndirilmişdi. Onu Araz boyu ikiyə bölünmüş Azərbaycan xoflandırmışdı. "Xain xoflu olar" demiş müdrik atalar. O və onun kimi xoflu xainlərə etiraz olaraq 1813-cü ildən İrana ilhaq olunmuş Cənubi Azərbaycanda yaşayan 40 milyonluq Azərbaycan türkü ayağa qalxdı, etirazını bildirdi. Bu etirazın bir nümunəsi isə təbrizli bir tələbənin yazdığı və sosial şəbəkələrdə bölüşülən "O şeiri bir də söylə, Ərdoğan!" şeiridir. Şeir belədir:

*Quzu kəsim şeir deyən dilinə,
O şeiri bir də söylə, Ərdoğan!
Səs verəcək harayına qırx milyon,
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

*Bircə bəndlik şeir ilə oyanıb,
Təbriz indi ayaq üstə dayanıb,
Çalxalanır, silkələnir bax bu an,
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

*Haqdan deyir, sevmir haqqı, düzü də,
Bir şeytandı astarı da, üzü də,
Zamanıdı dağılacaq özü də,
Bizi bizdən ayrı salan, ayıran.
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

*Dilindəki şər-böhtandı, yalandı,
Ermənəyə mehri-ülfət salandı,
İran ki var, İran deyil, ilandı,
Bu ilana qənim olsun o "Quran",
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

*Yox, dolmasın Araz daha lil ilə,
Axsın Araz o tay-bu tay gül ilə,
Biz ki, birik millət ilə, dil ilə,
Niyə axı ayrı qalsın bu məkan.
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

*O tay-bu tay Araz üstə yol salaq,
Bu birliyə alqış deyək, əl çalaq,
Bəsdir daha əsarətdə alçalaq,
Alçalmışıq düz iki yüz il zaman,
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

*Bu ayrılıq əbədilik yad olsun,
Pişəvəri ruhu daim şad olsun,
Ünvanımız bircə ünvan, ad olsun,
Hey bir olsun Azərbaycan sonacan,
O şeiri bir də söylə, Ərdoğan!
Qoy partlasın, qoy çatlasın bu İran!*

İran parlamentində bir fars şovinistin cahilcəsinə Azərbaycan haqqında səsləndirdiyi "Azərbaycan, İran hansı xidməti sənə etməyib, dünyada hansı dövlət İran kimi sənə xidmət etməyibdi. Torpağımızı bölübsünüz" kimi cahil fikri millətimizin 200 illik acı tale yaşadığı tarixini bir daha o taylı-bu taylı Azərbaycan xalqına xatırlatdı. Bu panfarsist şantajçıya cavab da mediada paylaşıldı. Onun söylədiyi İranın Azərbaycana "xidmətləri"nin cavabı aşağıdakı şəkildə üzünə sillə kimi dəydi:

1. Qarabağ müharibəsi illərində İran həmişə Ermənistanı silah-sursatla təmin edib.

2. Azərbaycan torpaqları uğrunda canınlarından keçən şəhidlərimizə şəhid demək əvəzinə, gedib Ermənistandakı qəbirlərdə yatan ölülərini ziyarət edib şəhid deyib.

3. İran qondarma erməni soyqırımı məsələsini təntənəli şəkildə qeyd edib.

4. İran Azərbaycanın halal, dədə-baba torpaqlarını işğal edib bu torpaqların varidatını talan edən, oğurlayan ermənilərə açıq pəncərə olub, tırlarda Ermənistana daşınan hərbi sursat, ərzaqın oraya keçməsini təmin edib.

5. I Qarabağ müharibəsindən keçən 30 il ərzində Araz boyu Ermənistanla ticarət edib, onlara hər vasitə ilə kömək edib.

6. Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğalı dövründə İran özünə qardaş saydığı işğalçı erməniləri Araz sahilində Azərbaycan radiodalğalarını pozmaq üçün avadanlıqla təchiz edib.

7. 30 il müddətində İran Azərbaycan torpaqlarında 40 milyonluq azərbaycanlıdan utanmadan Ermənistanı yanacaq, qida və hərbi silah-sursatla təmin etməkdən çəkinməyib.

8. Hələ bunları bilə-bilə özünü ziyalı hesab edən fars şovinisti İranın Azərbaycana etdiyi "xidmətlərdən" dəm vuraraq qarayaxdı kampaniyasına başlayır, erməni qardaşlarının əməllərinə bəraət qazandırır, onlarla əl-ələ verib xain əməllər törədir. Atalarımız yaxşı deyiblər ki, "Oğru oğrunu uzaqdan tanıyır".

Azərbaycanın Qarabağ adlanan müqəddəs torpaqlarının xain və gəlmə hayas ermənilər tərəfindən işğalının 30 ili müddətində Azərbaycan xalqının qonşu İranın ermənilərə dostluğunu və yardımını gördü. İşğal olunmuş torpaqlarımızda ermənilərlə əlbir işləyib bizim müqəddəs torpaqlarda əkdikləri narkotik maddələr, onun ticarəti, yaşayış evlərinin, maddi-mədəniyyət abidələrimizin, yeraltı və yerüstü sərvətlərimizin bu əlbirlik nəticəsində İrana və Ermənistana daşınmanın reallaşdığını da unutmaq mümkün deyil. Bununla bərabər İranın bizim işğal olunmuş torpaqlarımız üzərindən Ermənistana hərbi yardımı da unudulmayacaq. Hətta o da unudulmayacaq ki, namərd erməni faşistləri üzərində qələbə çaldığımız, ana torpağımız Cəbrayılın azad olunduğu gün İran tərəfi utanmaz-utanmaz bizə xəbərdarlıq etdi ki, Cəbrayılı Ermənistandan icarəyə götürmüşdük, indi bizim pulumuzu qaytarın. Xəbər almaq ayıb olmasın, nə vaxtdan Cəbrayıl erməni torpağı olmuşdu ki, sən onu arendaya götürüb narkobiznesə çevirəsən. Bəs bu sənin eyni dindən olan və sənə qonşu olan Azərbaycan xalqına xəyanətin deyilmi? Sosial mediadan oxuduğum bir şeirin aşağıdakı bəndləri yadıma düşdü:

*...Anlamıram bu dini, hərə bir cür anladır,
Cismiylə din qardaşım, könlü hayastandadır.
Üzündə bic təbəssüm, fikrində bizə ölüm,
Deyin, belə dindaşı qəbul etsinmi könül?*

Özünü müsəlman hesab edən fars şovinistlər Azərbaycan torpaqları üçün canından keçən şəhidlərimizə şəhid deməyən, gedib erməni meyitlərini ziyarət edib, onları bağrına basıb, onlara şəhid deyiblər. Bu, nə din qardaşlığı oldu?

İran parlamentində araqarışdırmaçı mövqe sərgiləyən panfarsistə cavab da gecikmədi. 200 illik tarixdə (1813-cü ildən) torpağı ikiyə bölünmüş Azərbaycanın ayrılıq taleyini, tarixi coğrafiyasını, mədəniyyət tarixini Cənubi Azərbaycanda yaşayan ziyalı soydaşımız, qan qardaşımız Məhəmməd Rza Kərimi sosial mediada paylaşdığı bir videoda panfarsist olan şantajçıya tutarlı cavabı ilə soydaşlarımızın mövqeyini şərh etdi.

Parlamentdə cahilcəsinə söylənən panfarsist fikrə cavab olaraq soydaşımız Məhəmməd Rza Kərimi Bağban sosial mediada paylaşdığı Rəcəb Tayyib Ərdoğanın söylədiyi və hər bir Azərbaycan türkünün əzbər bildiyi aşağıdakı şeirlə başlayıb izah etdi:

*Arazı ayırdılar,
Lil ilə doyurdular,
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar.
Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın.*

Məhəmməd Rza Kərimi deyir ki, "Bu şeir Qarabağa aiddir. Baxın, Ərdoğan cənabları şeiri belə oxumuşdur. Mahnıda olan bayatı da Laçına aiddir və Laçın da Qarabağa aiddir. Qarabağı da 30 il Azərbaycan Cümhuriyyətindən ayırıb işğal etmişlər. Bu şeirin başqa bəndləri də var və son misralar, yəni

*"Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın"*

- misraları təkrar olunur. Sayın Ərdoğan cənabları eynən belə demişdir" - deyir doktor Kərimi və sözünə belə davam edir. "Bu mahnı Qarabağa aiddir və İrana da heç mərbut olan da deyildir.

Əlbəttə, bu bayatını azərbaycanlılar hər bir tarixi hadisə üçün də oxumuşlar. Bu, azərbaycanlının ürək mahnısıdır, ürək sızıltısıdır. Bizim xarici vəzirimiz bu türkünü qanmamış, çünki onun yan-yörəsində türkü bilən yoxdur, türkünün tarixini bilən də yoxdur. O, İranı tanıyan biri olsaydı, düşünərdi və fitnə yaratmazdı. Fitnə ordan yaranır ki, vəzirin ətrafında olan İranşəhrli adlandırdığımız həmin əski panislamistlər, panfarsistlər tutmuşlar. Bunlar hər hiyləyə və məkrə əl atıb İranı parçalamağa çalışırlar. Onların hədəfi İrana təfriqə salmaqdır.

Doktor Kərimi İran tarixini xatırladaraq deyir ki, min illər İranı hökumət edənlər türklər olmuşlar və min illərdə iranlı hansı qövmdən olur-olsun, türklərdən bir pislik görməyib. Amma Rza şah hakimiyyətə gələn gündən ingilis siyasəti panfarsların əlilə güclənib və güclənmişdir".

Buraya qədər İran-Azərbaycan münasibətlərinin gərginləşməsində bir yumşaldıcı mövqe tutan Kərimi əsl mətləbə keçərək İrana ilhaq olunmuş Cənubi Azərbaycanın parçalanmasını ürək ağrısı ilə izah edir və sözünə belə davam edir: "Təəssüf ki, İranda Azərbaycan torpağı 42 ildir hey parçalanır, bu gün Azərbaycan 7 ostana bölünüb: Azərbaycan Şərqi, Azərbaycan Qərbi, Ərdəbil, Zəncan, Qəzvin, Həmədan və s. Bu yeddi ostanda Azərbaycan türkləri kompakt yaşayır. Amma bu gün Azərbaycan türkləri İranın 31 ostanından 28 ostanında yaşayırlar. İran əhalisinin yarısı Azərbaycan türkü olmasına baxmayaraq onlar tamam əzilməkdədir.

Doktor Kərimi "Qoyun bir dəfə də açıq danışaq", - deyə sözünə davam edərək fitnələrin Qarabağ savaşından başladığını söyləyir və ermənilərin Qarabağı işğal etdiyi 30 ildə İran erməniləri müdafiə edərək onlara hərtərəfli yardım etdiyini deyir. İranın ermənilərin tərəfini tutmasını İranda yaşayan hər bir azərbaycanlının bildiyini də açıq-aşkar söylədi və dedi ki, siz başınızı qara soxub özünüzü hər şeyi bilən sayırsınız. Hər bir azərbaycanlı bilir ki, İran dövləti ermənilərin işğal etdiyi Azərbaycan torpaqlarında ermənilərlə anlaşma bağlayıblar və işğalçı ermənilərlə bərabər Azərbaycan torpaqlarında bir çox proyektlərə imza atıblar. Belə işlərə xəyanət deməyim, bəs nə deyim? İndi erməni işğalçıları Qarabağdan qovulub, İran nə edəcək? Sizin bu işləriniz beynəlxalq qanunlara zidd olan işlərdir. Sizin düşüncələriniz bir dağ başında yaşayan Azərbaycan kəndlisininki qədər də yoxdur.

Doktor Kərimi İranda yaşayan Azərbaycan xalqının İranın bütövlüyü üçün qanlar tökdüyünü, şəhidlər verdiyini, 42 ildir anayasada (konstitusiyada) minlərlə şəhidimizin qanı hesabına yazılan maddələrin icra olun-

mamasını da ifadə etdi və dedi ki, bununla belə hörmətli və nəcib xalqımızın səsi çıxmamışdır. İnanın ki, bu sükut qorxudan deyil. Ancaq siz də daha cana gətirməyin, fitnədən əl çəkin. Açıqcasına deyirəm, 42 ildir ki, 40 milyon türkdilli İran xalqı ilk insani hüquqlardan məhrumdur. 42 ildir öz dilində mədrəsə istəyir, 42 ildir minlərlə şəhidin qanı bahasına yazılan anayasanın 15 və 19-cu maddələrini icra etməmisiniz.

Qarabağdan ermənilər qovulan gün İran dövləti ermənilərin hüquqlarının qorunmasından nigaranlığını bildirir. Əcəba, 40 milyonluq Azərbaycan türkünün öz vətənində mədəni hüquqları yoxdurmu? Utanmırsınız? Amma inanın ki, Azərbaycan oyaqdır, həqiqətə dayaqdır. Azərbaycanı bundan artıq incitməyin. Elə bir gün gələr ki, daha qayıdış yolları da bağlanır.

İslami Şura məclisinin nümayəndəsi Ağayi Məhmud Əhədi Biğoş məclisdə çığırıb deyir ki, gərək Qarabağ savaşında ermənilərə himayə edəydik. Bunların ağzını yumun. Utanmaz-utanmaz deyir ki, Amerika və Avropa Türkiyəyə embarqo qoysun, biz də onları himayə edəcəyik. "Amerikaya ölüm" şüarı verib, amma ətəyindən yapışmısınız.

Siz hələ Azərbaycan mahnılarından çoxunu başa düşməmisiniz "Yar bizə qonaq gələcək" mahnısını da başa düşməmisiniz. Yüzlərlə ayrılıq, həsrət ədəbiyyatını və başqa-başqa sözləri başa düşməmisiniz. Çünki siz Azərbaycanı düşünmürsünüz, Ağayi vəzir! Siz düşünməsəniz də Azərbaycan xalqı düşünür. Bilin ki, Azərbaycan oyaqdır, həqiqətə dayaqdır.

Onu da qeyd edim ki, soydaşımız Məhəmməd Rza bəy bəzən yumşaq, ilımlı ifadələr işlətsə də, bu ifadələrin də alt qatında bir üsyanın, bir sərtliyin olduğu görünməkdədir.

Vaxtilə doktor Mahmut Ceylaqanin sosial mediadan izlədiyim bir videokasetində Rəfsəncaniyə müraciətlə dedikləri də yada düşdü: "Sən mənim dərələrimin adını dəyişdirdin, dağlarımın, çaylarımın, köylərimin, kəndlərimin, şəhərlərimin adını dəyişdin. Sən məni ən ibtidai insan haqlarından məhrum qoydun. İranda 70 min erməni yaşayır. Erməniyə məktəb, uşaq bağçası açdın. 70 min erməni müqabilində sənin əhalinin 40 milyonu türkdür. Erməninin lisanını (dilini), ədəbiyyatını qoydun. 40 milyonluq türkə bir mədrəsə qoymadın ki, orada türklər ana dilinin əlifbasını öyrənsin. Sən mənim mədənlərimin misini, qızılını qazdın, daşıdın Şirmana. Sən Sunqun, Zəncanın, Tufarqanın mis, qızıl, mərmər mədənlərini qazdın, götürdün fars məntəqələrinə. Sən Təbrizi ən ibtidai haqlarından məhrum elədin. Sən petrolla çalışan fabrikanı Şirazda açdın. Fabrikanı Təbrizdə açmadın. Təbrizdə açdınız, bilirsən nə ilə, Qara neftlə. Təbriz cəhənnəm çölünə bənzəsin deyə. İsfahana yatırdığın sərmayə Təbrizdən 400 dəfə artıqdı. Mən azərbaycanlı olaraq bir dəri, bir sümük qalmışam. Namərdlər, alçaqlar, sülüklər, düşmənlər, oğrular.

Sən məni ayırdın. Sən İranı bölürsən. Sən farsa haqq verdin yüz faiz. Türkə verdin yüzdə sıfır faiz. Sən zalımsan, sən namərdsən, sən oğrusan, sən bizi ayırırsan. Sən bizi bölməyə, parçalamağa təşfiq edirsən".

Göründüyü kimi Azərbaycan xalqının maddi-mənəvi dəyərlərinə, işğalçılara zərbə vuran haqq işinə, onun zəfər yürüşünə şantaj yolu ilə kölgə salmaq istəyən ermənipərəst İran panfarsistləri unudulmayır. Xalqın qəzəbinə və etirazına səbəb olur. Məlumdur ki, tarixi qədimlərə dayanan Azərbaycan torpaqları XIX əsrin əvvəllərindən işğala uğrayaraq ikiyə bölünmüşdür. İşğal məqsədilə Azərbaycan torpaqlarına göz dikən Çarlıq Rusiyası və İran Azərbaycan torpaqları üzərində uzun illər müharibələr etmiş, nəticədə hər iki işğalçı dövlət Azərbaycan torpaqlarının parçalanıb ikiyə bölünməsinə və bu torpaqlar üzərində hökmranlıq etməyə nail olmuşlar. 1813-cü ildə onlar arasında bağlanan "Gülüstan" və 1828-ci ildə bağlanan "Türkmənçay" müqavilələri ilə hər iki işğalçı dövlət öz murdar istəklərinə nail olmuşlar.

Araz çayı boyunca ikiyə bölünmüş Azərbaycan torpaqlarının Şimal hissəsinin Çar Rusiyası, Cənub hissəsinin də İrana ilhaqı ilə gerçəkləşən uğursuz talе təxminən 200 il ərzində davam etməkdədir.

1813-cü ildən İrana ilhaq olunmuş Cənubi Azərbaycanın qüdrətli şairi Şəhriyar bu bölgünü Süleyman Rüstəmə yazdığı bir məktubunda göz ilə qaş arasında çıxan çibana bənzədir:

*Göz yaşımsan, ay Araz,*
*qoyma gözüm baxsa da görsün,*
*Nə yaman pərdə çəkibsən*
*iki qardaş arasında.*
*Demə dağ-daşdı, Süleyman,*
*məni səndən ayıran,*
*Bir çibandır ki, çıxıbdır*
*göz ilə qaş arasında.*

Şəhriyarın 10 il ərzində danışıqlarının alındığı diskdəki aşağıdakı cümlələr də diqqətimi çəkib. O deyir ki, "mən İranı mülki-Azərbaycan bilirəm. Şah İsmayıl İranı məmləkət eyləyib verdi xalqına. Azərbaycan olmasaydı, İranda Məşrutə olmazdı. Azərbaycan olmasaydı, İranda dini-islam olmazdı. İran bir peykərdir, bu peykərin kəlləsi, başı Azərbaycandır. Səttar xan kim idi? Azərbaycanlıların əzizi, rəşidi, sərdarı".

Xalq şairi Sabir Rüstəmxanlının yazdığı kimi: "Görəsən, dünyada ikinci bir çay tapılarmı ki, Araz çayı qədər mürəkkəb və faciəli taleyi olsun, Araz çayı qədər dildən-dilə düşsün, Araz qədər şeir və mahnı mövzusuna çevrilsin, Araz qədər ittiham edilsin, umu-küsü hədəfinə dönsün, nifrətlə damğalansın və ... Araz qədər sevilsin?!".

"Araz - Azərbaycanın şah damarlarından biri, min illərlə bütöv bir xalqın sevinc və bərəkət mənbəyi olmuş çay indi sərhəddi, ayrılıqdı, göz yaşıdı..." (Sabir Rüstəmxanlı. "Ömür kitabı". Bakı: Gənclik, 1969, səh. 167).

Yenə Sabir Rüstəmxanlının "Ömür kitabı"ndakı aşağıdakı sətirləri yazmaq istəyirəm: "İran hökuməti çalışır ki, "iranlı" sözü arxasında Azərbaycan unudulsun. Belə bir vəziyyətdə müstəqilliyi və azadlığı tərənnüm edən əsərlərinə görə Təbrizdə şair Sədi Yüzbəndinin başını kəsib anasının ətəyinə atdılar.

...Məmmədbağır Nikam güllələndi.

...Aşıq Hüseyn Ziyadoğlunun bütün sümüklərini qırıq-qırıq edib, sonra güllələdilər.

...Kənd-kənd düşüb ana dili dərsi keçən gözəl uşaq yazıçısı Səməd Behrəngi SAVAK-ın əli ilə Araz çayında boğuldu.

...Mərziyə xanım Əhmədi Üsküyi küçə döyüşlərində üzbəüz atışmada düşmən gülləsini ürəyi ilə saxlamışdı" (səh. 206).

Onu da demək yerinə düşər ki, Üskü şəhərində yaşamış "ana dili" müəlliməsi Mərziyə Üsküyi dərs dediyi məktəbdə şagirdlərinə ana dilində, yəni Azərbaycan dilində şeir əzbərlətdiyi üçün onu işdən qovub, sonra isə həbs edib vəhşicəsinə öldürürlər. Müəllimədən "nədən ana dilində (Azərbaycan dilində) şeir əzbərlədirsən" sualına Mərziyə xanım: "Mənim tədris etdiyim fənnin adı "Zəbani - madəri" deyilmi? Bu sözü biz fars dilindən Azərbaycan dilinə çevirsək, olar "Ana dili". Mən də şagirdlərimə öz doğma elində, öz doğma dilində şeir əzbərlətmişəm. Mənim günahım budurmu? - deyə cəsarətlə cavab verir. Azərbaycanın filosof şairi Bəxtiyar Vahabzadə 1984-cü ildə yazdığı "Mərziyə" adlı poemasında cəsur və cəsarətli müəllimə Mərziyə Üsküyü belə poetikləşdirir.

*Sən doğuldun qeyrətdən,*
*Qüdrətindən, Mərziyəcan,*
*Aldım sənin sorağını,*
*Ölümündən çox sonra mən,*
*Mərziyəcan.*
*Sən vuruşdun, əlindəki silahla yox,*
*Qəlbindəki inamınla, imanınla,*
*Həkk elədin öz adını,*
*Sən tarixə öz qanınla.*

**(B.Vahabzadə. "İstiqlal". Bakı, 1999, səh. 400).**

1980-ci illərdə Mərziyə Üsküyüyə verilən qəddar cəza 2022-ci ildə yenə İranda islam pərdəsi altında xalqa cəhaləti yaşadan İran monarxiya sistemində görülməkdədir.

Hicabı doğru bağlamadığı üçün gənc qız Məhsin Əmininin əxlaq polisi tərəfindən vəhşicəsinə döyülüb öldürülməsi dünyaya bəlli oldu. Dünya bu haqsızlığa etiraz səsini ucaltdı.

Azərbaycan xalqının Araz çayı boyunca ikiyə bölünmüş 200 illik acı talе yaşamış tarixini xatırlatmağa, bu tarixdə yaşanan etirazlara ehtiyac varmı? Əlbəttə, var. Çünki bu, bir millətin tarixi, coğrafiyası və taleyidir. Hər zaman xatırlanmalı, yaşanılan gerçəklər dünyaya bəyan edilməli, kitablaşdırılmalıdır. Xalqımızın mədəniyyət və mənəviyyat pasportu onun torpağı, dili və dinidir. Az xalq vardır ki, onun yaşadığı torpaq ikiyə bölündüyü üçün, bu torpağı işğal edən dövlətlərin siyasi rejimi işğala uğramış, ərazisi ikiyə bölünmüş torpaqlarda yaşayan xalqın inkişafına, dövlətçiliyinə zərbə vurulmamış olsun, onun irəliləməsinə əngəl törətməmiş olmasın.

Çox şükürlər olsun ki, XX əsrin sonlarında işğala uğrayıb vaxtilə Çar Rusiyasına və 1920-1991-ci illər arasında Sovet İttifaqının tərkibinə ilhaq edilmiş Şimali Azərbaycan (indi Müstəqil Azərbaycan Dövləti) 1991-ci ildən öz müstəqilliyini bərpa etmişdir.

Araz çayı boyunca ikiyə bölünmüş Cənubi və Şimali Azərbaycan adlanan torpaqları İrana ilhaq olunan torpaqlarında yaşayan Azərbaycan türkləri bu ilhaqdan sonra siyasi hakimiyyətini itirmiş, onların ana dilində təhsil alması qadağan edilmişdir. Onlar istər torpaq, istər din, istərsə də əlifba ilə bağlı manеələrlə qarşılaşsalar da 40 milyonluq xalq öz milli kimliyini saxlamış, ana dilini evlərində, yaşadıqları ərazidə yaşatmışlar.

İranda öz torpaqlarında yaşayan 40 milyonluq Azərbaycan xalqını heç zaman fars şovinistlərinin gözü götürməyib.

Məlumdur ki, "Azəri xalqı" ifadəsi geniş mənada həm Cənubi, həm də Şimali Azərbaycanda yaşayan Azərbaycan kökənli Azərbaycan xalqı mənasını ifadə edir.

Bütöv Azərbaycan xalqı mənasını daşıyan bu ifadəyə Azərbaycan haqqında yazılan bütün əsərlərdə də "Azərbaycan xalqı", "Azəri xalqı", "Azərbaycan türkü" şəklində də rast gəlinir. Azərbaycanda yaşayan xalq, yəni Azərbaycan xalqını ifadə edən "Azəri" sözünə də fars şovinizmi qara yaxaraq siyasi bir qulp qoyaraq deyirlər ki, azərilər türkcə danışan farslardır. Guya bu 40 milyonluq soydaşımızı zorla Azərbaycan dilində danışmağa məcbur ediblər.

Gülməlidi, Məşədi İbad demiş: "Hec hənanın yeridi?". Öz halal torpaqlarında yaşayan, öz halal dilində danışan, bu dildə tarixin ən gözəl əsərlərini yazan, mədəniyyət abidələrini yaradan Azərbaycan türkləri heç vaxt farsların onlara damğa kimi durmaq istədikləri "azəri" kəlməsini qəbul etmirlər və özlərinə iftixarla "biz türkük" deyirlər. Farslar məntiqsiz, ağ yalanlar danışdıqları duzsuz kəlmələrə özlərini də inandırmağa çalışırlar. "İnanan daşa dönsün" deyirik, vallah.

Bunu biz Türkiyədə yaşayan tədqiqatçı alim Enver Uzunun "İran Türk Basınının 200 yılı" (2016) kitabındakı aşağıdakı cümlələrindən də görürük: "Bu gün İranda yaşayan əhalinin yarısına yaxın bir hissəsini təşkil edən Azərbaycan türkləri İran coğrafiyasında uzun illər hakimiyyətdə olmalarına baxmayaraq, bu coğrafiyada 1813-cü ildən bəri fərqli bir tarix yaşanmaqdadır. Bu fərqlilik sosial yaşanmanın hər sahəsində özünü göstərməkdədir" (səh. 5).

Əgər fars şovinistlərinin utanmadan dedikləri "farsdan dönmə" ağ yalanı həqiqət idisə, o zaman niyə İranda yaşayan ermənilərin XIX əsrin əvvəllərində Azərbaycan türklərinə etdikləri Xoyda, Solmasda, Urmiyadakı soyqırımının qarşısını almadılar, onlara sahib çıxmadılar. Bu ayaq tutub yeriməyən şovinist yalanları biz XX əsrin sonlarında da Qarabağın işğalı zamanı İranın ermənilərlə işbirliyində və onlara yardımında da gördük və bu gün də görməkdəyik.

İranda Azərbaycan xalqına münasibətdə XX əsrin əvvəllərində erməni şovinistlərinin Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza etdikləri qətllərə və Arazın bu tayındakı Azərbaycan torpaqlarının erməni işğallarına, torpağın viran edilməsinə göz yuman və ermənini doğma qardaşı kimi torpağında barındıran İranın bugünkü davranışında və münasibətində də görmək mümkündür.

2020-ci ildən doğma Qarabağ torpaqlarını erməni vəhşiliyindən azad edən, başqa torpaqlarda gözü olmayan Azərbaycan dövlətinin düşündüyü siyasi xətt, Azərbaycan ermənі sərhədinin müəyyənləşməsi İranı niyə narahat edir, ikibaşlı siyasi açıqlamalar söyləməyə vadar edir?

Bunun səbəbləri də gün kimi aydın və hər kəsə, elə İranın özünə də bəllidir. Bu siyasəti, qısqanclığı bir vətəndaş kimi belə izah etmək mümkündür.

1. İran bugünkü Azərbaycan reallıqlarını və Azərbaycanın müstəqilliyini həzm edə bilmir - demək doğru olar.

2. İranı narahat edən Azərbaycan dövlətinin güclənməsi, söz sahibi olmasıdır. İran Azərbaycanı özünə rəqib sayır.

3. İran 1813-cü ildən İrana ilhaq olunmuş torpaqlarımızın əlindən çıxmasından ehtiyat edir. Onu da unudur ki, möhtərəm Prezidentimiz İlham Əliyev hər zaman çıxışlarında vurğulayır ki, Azərbaycanın heç kimin torpağında gözü yoxdur və Azərbaycan dövlətlərin sərhədini tanıyır.

4. İran Azərbaycanın Zəngəzur dəhlizinin açılmasından ehtiyat edir və hesab edir ki, bu dəhlizin açılması İranın bölgədəki fəaliyyətini sıfırlaya bilər. Odur ki, "qırmızı xətt" ifadəsinin işidir.

5. İran əsrin əvvəllərində və I, II Qarabağ müharibəsi illərində İranda yaşayan ermənilərdən istifadə faktından yararlanır və İranda yaşayan 40 milyonluq Azərbaycan türkünə deyil, 60-70 minlik erməniyə üstünlük verərək ayrı-seçkilik toxumu səpir. Bununla da yenə ermənipərəst panfarsist siyasətini gizlədə bilmir.

6. İran özünü Azərbaycana guya dost kimi göstərib dini bir olduğumuzu sözdə desə də, 30 il ərzində Qarabağda dağıdılan müsəlman məscidlərinə, məscidlərə donuz bağlanmasına heç bir münasibət bildirməmiş, əksinə, hər zaman əli müsəlman Azərbaycan xalqının qanına bulaşmış, soyqırımı törətmiş canilərə qucaq açmış, onları barındırmışdır.

7. İranın Ermənistanın Azərbaycan ərazisinə yaxın olan Qafanda konsulluq açması, Ermənistanın İran ərazisində olan qədim Azərbaycan şəhəri Təbrizdə konsulluq açmaq istəyi İranın Cənubi Azərbaycan ərazilərindəki müəmmalı siyasətidir.

8. İranın Ermənistanın təhlükəsizliyini hesab edir kimi müəmmalı, ikibaşlı bəyanatları təəccüb doğurur.

Bu gün də yenə eyni mövqedən çıxış edərək ikili standartlarla danışır, yolların açılması, sərhədlərin müəyyən edilməsi ilə bağlı danışıqlara maneçilik törədir və qorxur ki, İranda yaşayan 40 milyon soydaşımız öz sərhədini, öz dövlətini müəyyən etsin. Ancaq onu da unudur ki, doktor Kərimi demiş, "Azərbaycan oyaqdı, həqiqətə dayaqdı".